# HP ŞİRKƏTİ AZƏRBAYCANDA SOSİAL LAYİHƏLƏR HƏYATA KEÇİRİR

**Bu fəaliyyətinə görə HP "İntellekt" mükafatına da layiq görülmüşdür**

HP şirkətinin Azərbaycandakı nümayəndəliyi Azərbaycanda sosial sahədə fəaliyyətinə görə "İntellekt-2007" mükafatına layiq görülmüşdür. Bu mükafat "İntellekt" klubu tərəfindən müxtəlif nominasiyalarda hər il təqdim olunur.

HP şirkəti bütün dünyada nəinki öz yüksək keyfiyyətli avadanlıqlarına və həllərinə görə, həm də sosial sahədə fəaliyyətinə böyük hörmət qazanmışdır. 170 ölkədə fəaliyyət göstərən HP müxtəlif səviyyədə lokal sosial təşəbbüslərə dəstək göstərir. HP şirkətinin Azərbaycandakı nümayəndəliyi həmçinin sosial sahədə layihələrin reallaşmasına xüsusi diqqət yetirir.

Sosial sahədə ən önəmli layihəlrdən biri HP şirkətinin GET-IT (Graduate Entrepreneurship Training through IT) - "İnformasiya texnologiyaları vasitəsilə sahibkarlıq təlimləri" proqramıdır. Dünyanın 18 ölkəsində reallaşan bu proqram Azərbaycanda "MADAD" qeyri-hökumət təşkilatı ilə birgə həyata keçirilir. Proqram çərçivəsində sahibkarlar üçün Təlim mərkəzi yaradılmışdır. Tədris mərkəzində gənc sahibkarlar müxtəlif biznes-məsələlərin həlli yollarını öyrənəcəklər. Bu proqram vasitəsilə gənclər biznesin qurulması üçün zəruri olan informasiya texnologiyaları sahəsində biliklər əldə bilir.

HP şirkəti həmçinin Azərbaycanda uşaq şahmatlarına dəstək verir. Bu il HP şirkətinin Azərbaycandakı nümayəndəliyi ölkədə bir neçə uşaqlar arasında şahmat turnirinə dəstək vermməklə yanaşı, həçminin Uşaqlar arasında "Hewlett Packard – Makkabi" I Beynəlxalq şahmat turnirin təşkilatçısı olmuşdur. Bu şahmat turnirində Azərbaycandan, Rusiyadan, Hindistandan, Türkiyədən, İsraildən və Gürcüstandan olan gənc şahmatçılar iştirak etmişdir. HP şirkətinin Azərbaycan nümayəndəliyi uşaq şahmatının dəstəyini vacib sayır, çünki bu idman növü ölkənin intellektual potensialının gücləndirilməsinə imkan yaradır.

HP şirkəti həmçinin müasir foto yaradıcılığını da dəstəkləyir. 2007-ci il ərzində HP şirkəti Azərbaycanın internet zonasında ilk dəfə keçirilən "Mobiloqrafiya" foto müsabiqəsinə dəstək vermişdir. Həmçinin, HP şirkəti Azərbaycan Respublikası Mədəniyyət və turizm Nazirliyinin dəstəyi ilə keçirilən "Ayna 2007" II Beynəlxalq foto festivalının sponsoru olmuşdur. Bu festivalda Türkiyədən, Kanadadan, Rusiyadan, Sloveniyadan, Serbiyadan və s. ölkələrdən nümayəndələr iştirak etmişdir.

HP şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Rüfət Hacıəlibəyovun sözlərinə görə, HP-nin sosial proqramlarının məqsədi insanların təhsildə, əmək fəaliyyətində, elmdə istifadə olunan yeni texnologiyalara sərbəst çıxışını təmin etməkdir. O hesab edir ki, Azərbaycanda HP şirkətinin dəstəklədiyi müxtəlif sosial layihələr məhz həmin ümdə məsqədləri güdür və insan potensialının inkişafına xidmət edir. Məhz bu baxımdan texnoloyalar məqsəd kimi yox, alət kimi qəbul edilir.

invent